**"Azərbaycan Respublikasında Mişovdağ və Kəlaməddin neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında" Sazişə Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 14 avqust tarixli, 502 nömrəli Sərəncamına əsasən Azərbaycan Respublikasının Dövlət Netf Şirkəti (ARDNŞ) və Karasu Development Kompani Ltd. (KDK), Pet Oyl Petroleum ənd Petroleum Prodakts İnterneyşnl Eksploreyşn ənd Prodakşn İnkorporeyted (Pet Oyl) xarici neft şirkətləri arasında "Azərbaycan Respublikasında Mişovdağ və Kəmaləddin neft yataqlarının daxil olduğu blokun bərpası, kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünü haqqında" Sazişin 2000-ci il sentyabrın 12-də imzalandığını nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Göstərilən Sazişin 5-ci əlavəsində qeyd olunmuş Azərbaycan Respublikası Hökumətinin təminatı və öhdəlikləri təsdiq edilsin.

(Azərbaycan Respublikası Baş nazirinin yanında 2000-ci il sentyabrın 26-da keçirilmiş iclasın 7 nömrəli protokolu).

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 26 sentyabr 2000-ci il**

**№ 175**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu $g 2000.- 30 sentyabr, № 9.- S. 4210-4211.**